BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2014*

UOT 94 (479. 24)

# XIX ƏSRİN SONU-XX ƏSRİN ƏVVƏLİNDƏ BAKI QUBERNİYASINDA MÜLKƏDAR TORPAQ SAHİBLİYİNİN TƏKAMÜLÜ

**F.E.BAXŞƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***bfazil4444@mail.ru***

*XX əsrin əvvəllərində Bakı quberniyasında sahibkar kəndində əmtəə istehsalının vacib xüsusiyyətlərindən biri bəy – mülkədar və digər sahibkar şəxslərin təsərrüfatlarının getdikcə daha burjua – kapitalist təsərrüfatları xarakteri daşıması, istehsal olunan müxtəlif kənd təsərrüfatı məhsullarının məcmusunda onların xüsusi çəkisinin artması idi. XX əsrin əvvəllərində Azərbaycan sahibkar kəndində istehsalın ən müxtəlif sahələrində əmtəə-kapitalist münasibətlərinin inkişafını sürətləndirən amillərdən biri də taxıl əkini sahələrinin əvvəlki illərdən fərqli olaraq daha intensiv becərilməsi, müasir texnika, o cümlədən dəmir kotanlar, taxıldöyən maşınlar və s. istifadə olunması idi. Bu dövrdə bəzi sahələrdə əmtəə istehsalı prosesi get-gedə daha çox sənaye xarakteri daşımağa başlayırdı.*

**Açar sözlər:** kapitalist, inkişaf, kənd, Bakı

1870-ci il 14 may Kəndli Əsasnaməsinin qəbul edilməsindən sonrakı bir neçə on il ərzində Şimali Azərbaycanda aqrar münasibətlərin mürəkkəb olduğu bir şəraitdə (6) kənd təsərrüfatının bütün sahələrində, bəzi sahələrdə ləng, bəzi sahələrdə bir qədər sürətli, gedən sosial və iqtisadi proseslərin təsirinin kifayət qədər hiss olunduğu sahələrdən biri də mülkədar torpaq sahibliyi idi (6, 64).

İmperiyanın ardınca, Cənubi Qafqaz quberniyalarında, o cümlədən əsasən azərbaycanlılardan ibarət Yelizavetpol və Bakı, qismən də İrəvan quberniyalarında iqtisadiyyatda baş verən proseslərin, ilk növbədə kapitalist münasibətlərinin yaranması, əmtəə-pul münasibətlərinin genişlənməsi (1, 344), torpaqların alqı-satqı obyektinə çevrilməsi, sahibkar kəndlilərinin öz torpaq sahələrini ödənc yolu ilə almaq hüququ əldə etməsindən sonra xüsusi mülkiyyətçilər təbəqəsinin genişlənməsi imkanlarının yaranması, kənd əhalisi arasında əmlak və sosial bərabərsizliyin güclənməsi və ya təbəqələşmə prosesinin sürətlənməsi (4, 28-29), mülkədar malikanələrində muzdlu əməkdən istifadə hallarının artması (3, 65) və bir çox belə proseslərin fonunda mülkədar torpaq sahibliyi dəyişməz qala bilməzdi.

Bakı quberniyasında isə vəziyyət bir çox məsələlər baxımından Yelizavetpol, qismən də İrəvan quberniyalarında olduğundan bir qədər fərqli idi.

Quberniya üzrə mülkədar və bəylərin malik olduqları rəqəmlərin müqayisəli təhlili maraqlı nəticələr əldə etməyə imkan verir. Bakı quberniyasında 1211 malikanənin birlikdə 246913 desyatin torpaq sahəsi olmuşdu. Bu torpaqların ən böyük hissəsini mülkədar və bəylərə məxsus meşəlik sahələri təşkil edirdi – 103667 desyatin. Quberniya üzrə ikinci yeri əkin sahələri tuturdu – 73905 desyatin. Üçüncü yerdə – 56900 desyatin sahəsi olan otlaqlar dayanırdı. Daha sonrakı yerlərdə 10710 desyatin sahəsi olan biçənəklər, 1242 desyatin sahədə isə bağçılıq sahələri dayanırdı (10, 69).

Qəzalar üzrə mülkədar torpaqlarının çoxu – 100346 desyatin Lənkəran qəzasının və 52018 desyatin Quba qəzasının payına düşürdü. Belə torpaqların həcminə görə üçüncü yerdə 30165 desyatin sahə ilə Göyçay qəzası dayanırdı. Sonrakı 3 yeri 29156 desyatini Cavad, 27164 desyatinlə Şamaxı və 7184 desyatinlə Bakı qəzaları tuturdu (9, 68-69).

Mülkədar torpaqlarında təsərrüfatçılığın hansı formasının üstün olması baxımından qəzalar bir-birindən təccüblü dərəcədə fərqlənirdilər. Əkin sahələri quberniyanın bütün qəzalarında mövcud olsa da, burada ilk yeri 26055 desyatin əkinə yararlı torpaq sahəsi olan Quba qəzası, sonuncu 2 yerdə isə 7533 desyatinlə Lənkəran və 7184 desyatinlə Göyçay qəzaları dayanırdı. Regionda əkinçilikdən sonra ikinci əhəmiyyətli sahə olan maldarlıq üçün zəruri olan otlaq sahələrinin sahəsinə görə 15667 desyatin ərazi ilə Göyçay, 14302 desyatinlə Cavad, 12744 desyatinilə Quba qəzaları ilk üç yeri bölüşürdülər. Bu baxımdan sonuncu yerdə 1134 desyatinlə Lənkəran qəzası mülkədarları dayanırdı. Meşəlik sahələrin həcmi üzrə nəticələrə görə Lənkəran qəzası mülkədar və bəyləri özlərindən sonrakı yerdə gələn Quba qəzasından 13,5 dəfə çox (müvafiq olaraq 90888 və 6650 desyatin), sonuncu altıncı yerdə olan Cavad qəzasından isə təxminən 350 dəfə çox (sonuncunun mülkədar və bəylə-ri-nin meşəlik torpaqları cəmi 262 desyatin idi) belə sahəyə malik idi. Bağ əkini sahələrinin müqayisəsində isə qəzalar arasında elə bir ciddi fərqlər yox idi. Üzüm və meyvə bağlarına görə ilk yerdə 401 desyatinlə Göyçay, 18 desyatinlə Şamaxı qəzası mülkədar malikanələri dayanırdı (9, 69-70 ).

XX əsrin əvvəllərində Cənubi Qafqaz quberniyaları üzrə dövlət kəndliləri ilə bərabər sahibkar kəndlilərinin də müəyyən hissəsi xüsusi mülkiyyətdə olan torpaqların icarəsi üçün tez-tez sahibkarlara müraciət edirdilər. Bu göstərici Cənubi Qafqaz üçün 37 faiz olsa da, Yelizavetpol quberniyası üçün bu 32 faiz idi (2, 49). Bakı quberniyası üzrə isə sahibkar kəndlilərinin torpaq icarə edən hissəsinin tam müəyyən edilməsi mümkün olmadığı üçün biz bu quberniyanın müvafiq göstəricilərini Orta Qafqaz və Yelizavetpol quberniyası üzrə orta göstəricilərlə müqayisə edə bilmirik. Aşağıdakı cədvəldə biz Bakı və Yelizavetpol quberniyalarında 10 il ərzində əkin torpaqlarının icarə qiymətlərinin nə qədər artmasını müşahidə edə bilirik. Cədvəldə icarə torpaqlarının 1 desyatini üçün icarə haqqı rublla göstərilir (2, 47-49).

| № | Quberniyalar | 1902-ci il (rublla) | | | | 1912-ci il (rublla) | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Yazlıq əkin | | Payızlıq əkin | | Yazlıq əkin | | Payızlıq əkin | |
| | | Suvar. | dəmyə | Suvar. | dəmyə | Suvar. | dəmyə | Suvar. | dəmyə |
| 1. | Bakı | 4,1 | 4 | 6,4 | 1,1 | 12,1 | 10,1 | 15,3 | 5,4 |
| 2. | Yelizavetpol | 6,4 | 3,9 | 4,6 | 3,6 | 12,3 | 7.1 | 8,8 | 6,5 |
| 3 | Cənubi Qafqaz üzrə | 11,1 | 7,1 | 11,8 | 6,7 | 19,1 | 12,3 | 19,8 | 10,1 |

Qeyd etməliyik ki, Cənubi Qafqaz quberniyaları üzrə ən yüksək icarəhaqqı qiymətləri əkin torpaqlarının, xüsusilə də suvarılan torpaqların azlıq təşkil etdiyi İrəvan quberniyası qəzaları idi (5, 147). Ümumiyyətlə isə Bakı və Yelizavetpol quberniyalarında ayrı-ayrı qəzalarda icarə haqqının müxtəliflik dərəcəsində məhz əkin torpaqlarının keyfiyyətindən xeyli dərəcədə, yalnız bundan sonra bu torpaqlarda becərilən məhsullara olan tələbatdan asılı idi. Cədvəldən göründüyü kimi, Bakı quberniyasında suvarılan torpaqlarda icarə qiymətlərlə təxminən 2-2,5 dəfə, Yelizavetpol quberniyasında isə təxminən 1,5-2 dəfə artmışdı. Halbuki digər Cənubi Qafqazın digər quberniyalarında, xüsusilə İrəvan quberniyasında əkin torpaqlarının icarə qiymətləri olduqca yüksək idi (2, 49). Əgər icarə haqqının artımını faizlə hesablamış olsaq, onda görürük ki, Bakı quberniyasında yazlıq əkin sahələri üçün bu artım 152,5-195,1 faiz, Yelizavetpol quberniyası üçün 82-92,1 faiz arasında dəyişir. 1962-ci ildə Şimali Azərbaycanın bəzi qəzalarında, o cümlədən Cavad qəzasında əkin torpaqlarını 1 desyatinin icarə haqqı 41-80 rubl arasında dəyişirdi (2, 50).

Əkin torpaqlarında icarəhaqqının yüksək olmasına torpağın məhsuldar olub-olmamasından başqa, orada daha qiymətli və gəlirli məhsuldar bitkilərin, xüsusilə texniki bitkilərin becərilməsi də öz təsirini göstərirdi.

Şimali Azərbaycanda sahibkar kəndlərində biçənək və otlaq sahələri çox zaman otlaqların mövcud olduğu və ya yerləşdiyi dağlıq və dağətəyi zonalarda yeganə məşğuliyyət və gəlir mənbəyi olduğu üçün icarə qiymətləri bir qədər başqa idi. Məsələn, Bakı quberniyasında otlaq sahələrinin icarə qiyməti 10 ildə (1902-1912-ci illərdə) 4-5,1 rubldan 8-10,3 rubla, Yelizavetpol quberniyasında isə 5,1-7,5 rubldan 8,7-11,1 rubla yüksəlişi, artım faiz etibarı ilə 203,1 və 101,6 faiz olmuşdu (2, 51).

Cənubi Qafqazın digər quberniyalarından fərqli olaraq, Şimali Azərbaycanda torpaqların icarə haqqı formasında natural vergi yenə də əsas idi və məhsulun 1/10, 1/7, 1/6 və ¼a başqa hissələrini təşkil edirdi. İcarə formaları içərisində qısa müddətli, bir mövsüm üçün olanlar kənd təsərrüfatı istehsalına mənfi təsir göstərirdi və icarəçilik istehsalının genişləndirilməsi və məhsuldarlığın artırılmasına heç bir marağı olmadığı üçün torpaq sahələrindən qarətkarcasına istifadə edilirdi.

XX əsrin əvvəllərində mülkədar torpaq sahibliyinin vəziyyətində mövcud

durumu Kəndli Əsasnaməsinin qəbulundan sonrakı dövrlə müqayisə etmək üçün quberniya və qəzalar üzrə həm mülkədar malikanələri və həm də onların torpaqlarının kəndlər üzrə necə yerləşməsini müəyyənləşdirmək xüsusilə zəruridir və bunu Bakı quberniyasında aşağıdakı cədvəl əsasında müşahidə edə bilərik.

| № | Qəzalar | Kəndlər | Mülk. və bəy kəndləri | Onların torpaq sahələri (desyatinlə) | Mülkədar və bəylərin sayı | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | malik. | kişi | qadın | cəmi |
| 1 | Bakı | 23 | 23 | - | - | - | - | - |
| 2 | Göyçay | 260 | 57 | 30166 | 216 | 709 | 556 | |
| 3 | Cavad | 191 | 88 | 29156 | 692 | 2394 | 2047 | |
| 4 | Quba | 466 | 106 | 85717 | 288 | 964 | 881 | |
| 5 | Lənkəran | 526 | 93 | 7872 | 215 | 924 | 762 | |
| 6 | Şamaxı | 176 | 38 | 27164 | 376 | 1582 | 1330 | |
| 7 | Quberniyalar üzrə | 1642 | 382 | 180055 | 1787 | 6473 | 5577 | |

Cədvəldən göründüyü kimi, mülkədar və bəylərə məxsus malikanələrin və torpaq sahələrinin yerləşmə dərəcələri müxtəlif qəzalar üzrə qeyri-bərabər olmuşdur. Quberniya üzrə bu baxımdan Quba qəzası birinci yerdə (466 kənddən 106-da), Şamaxı qəzası sonuncu yerdə (176 kənddən 38-də) olmuşdur. Lakin bir cəhət də nəzərə alınmalıdır ki, qəzalar üzrə kəndlərin ümumi sayında mülkədar və bəylərə məxsus malikanə və torpaqların olduğu kəndlərin sayının nisbət faizi müəyyən qədər fərqli olmuşdur. Belə ki, bu baxımdan ən yüksək nəticə 46,07 faiz Cavad, ən aşağı göstərici isə Lənkəran qəzalarında (17,72 faiz) olmuşdur (Müəllif). Quberniya üzrə orta göstərici isə 23,27 faiz idi. Bu o demək idi ki, quberniyanın 1642 kəndindən yalnız 382-də, yaxud 23,27 faizində mülkədar və bəylərə məxsus malikanə və torpaq sahələri qeydə alınmışdır (10, 69,70,87). Qəzalar içərisində yalnız Cavad qəzasının göstəricisi – 46,07 faiz orta quberniya göstəricisindən yüksək olmuşdur. Nəzərə almaq lazımdır ki, mülkədar və bəylərə məxsus sahibkar torpaqlarının sahəsinə görə quberniyada Quba və Göyçay qəzalarından sonra üçüncü yerdə olan Cavad qəzasında bu göstəricinin birinci yerdə olması, qəzada orta və xırda miqyaslı mülkədar malikanələrinin çoxluğu ilə bağlı idi. Bu isə o demək idi, ki qəzada bir kəndin torpaqlarının eyni vaxtda 2-3 və daha artıq sahibkara məxsus olması faktları daha çox idi. Belə ki, Cavad qəzasında 88 kənddə 692 bəy malikanəsi və ya təsərrüfatının mövcud olduğu halda, yuxarıda bəhs olunan Quba və Göyçay qəzalarında müvafiq olaraq 216 və 288 bəy ailəsinin yaşaması haqqında məlumat verilirdi. Qalan quberniyalar üzrə isə bu göstəricilər orta quberniya göstəricisindən də aşağı idi (8, 165).

Torpaq sahələri və malikanələrin olduğu kəndlərin sayı baxımından ən aşağı göstəricisi olan Şamaxı qəzasının (38 kənd) xüsusi torpaq sahələrinin həcmi baxımından 4-cü olmasına baxmayaraq, faiz nisbətinin 21,59 olması da

ilk baxışdan qəribə təsir bağışlasa da, qəza mülkədar və bəy malikanələrinin sayı (376) baxımından 2-ci yerdə idi.

Göyçay və Lənkəran qəzalarında mülkədar malikanə və ya ailələrinin sayının təxminən eyni, müvafiq olaraq 216 və 215 olmasına baxmayaraq sahibkar torpaqlarının olduğu kəndlərin ümumi nisbətdə faizi baxımından bir-birindən kifayət qədər fərqlənməsi (21,15 və 17,72 faiz) də diqqətdən kənarda qala bilməz.

Sahibkar torpaqlarının qeydə alındığı kəndlərin sayına görə quberniyada 3-cü olan Lənkəran qəzasında (526 kənddən 93-ü və ya 17,72 faizi) bu kateqoriyadan olan torpaqların cəmi 7872 desyatin olması (quberniya üzrə ən aşağı göstərici sayılırdı) orta quberniya göstəricilərindən kəskin şəkildə fərqlənmə demək idi. Bunun əsas səbəbi isə Lənkəran qəzasında mülkədar və bəylərə məxsus torpaqların çox böyük hissəsini kəndli pay torpaqlarının təşkil etməsi və sahibkarların bilavasitə öz istifadələrində çox az torpaq sahəsi saxlamağa üstünlük vermələri idi (8, 164-165).

Şimali Azərbaycanın bəzi qərb qəzalarından fərqli olaraq mülkədar və bəy malikanələrindən bir hissəsinin təklikdə bir kəndin, digər hissəsinin 2-3-lükdə yenə bir kəndin torpaqlarını əhatə etməsi ilə bərabər, bəzi vaxtda 3-5 və daha çox mülkədar və bəy malikanələrin mülkiyyətinə daxil olması faktları çox idi.

Əgər Bakı quberniyasında 382 kənddə 1787 mülkədar və bəy malikanəsinin və ya ailəsinin mövcud olduğunu nəzərə alsaq, onda xüsusi mülkiyyət torpaqlarının mövcud olduğu hər bir kəndə orta hesabla 4,6 malikanə düşməsi nəticəsini əldə edirik (7, 297). Bu isə həmin kateqoriyadan olan mülklərin kəndlər üzrə bölünməsi baxımından kifayət qədər sıxlıq demək idi.

**ƏDƏBİYYAT**

1. 1870-ci il 14 may kəndli islahatından sonra Şimali Azərbaycanda sahibkar əzndlilərin vəziyyəti haqqında // ADPU-nun Xəbərləri, Humanitar elmlər seriyası, 2006, №1, s. 339-344.
2. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin inkişaf xususiyyətləri // Авалиани С.Л. Крестьянский вопрос в Закавказье. т.V. Тбилиси: Мецниереба, 1986, 121 с.
3. BDU-nun Elmi Xəbərləri, Humanitar elmlər seriyası. 2011, №3, s. 64-72.
4. Велиев Т.Т.XX əsr Azərbaycan tarixi. II c. Bakı: Təhsil, 2009. 560 s.
5. Гасанов.Г.Н. Из истории Североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку: Тахсил. 2007, 224с.
6. «Кавказ и мир». Международный научный журнал.2011. №10
7. Сборник сведений о Елизаветпольской губернии. Тифлис: Типография т-ва «Вереичев и Каменмахер», 1902.
8. Сборник сведений о Бакинской губернии. Тифлис: Типография Губернского правления, 1914.216 с.
9. Свод статистических данных о населении Закавказского края извлеченныхъ изъ посемейнихъ списков 1886 г. ч.4., Типография Тифлись: Губернского правления. 1893., 671 с.
10. Свод статистических данных о населении Закавказского края извлеченныхъ изъ посемейнихъ списков 1886 г. прил.5., Тифлись: Типография Губернского правления, 1893., 671 с.

## ЭВОЛЮЦИЯ ПОМЕЩИЧЬЕГО ЗЕМЛЕВЛАДЕНИЯ В БАКИНСКОЙ ГУБЕРНИИ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В КОНЦЕ XIX- НАЧАЛЕ XX ВВ

**Ф.Е.БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

В статье подробно излагаются основные изменения происходившиеся в положении помещичьего землевладения во владельческой деревне Бакинской губернии Северного Азербайджана в начале нового века. Помещики и беки губернии в начале нового века и в особенности перед первой русской буржуазной революции и после нее сталкивались с новыми проблемами. В новых условиях им приходилась прибегнуть к новым методам хозяйствования. Закладка в банках помещичьих земель и их продажа уже превратились в обычное дело. И естественно в губернии размеры помещичьих земель с каждым годом уменьшились.

**Ключевые слова:** капиталист, развитие, деревня, Баку

## THE EVOLUTION OF LANDED ESTATES IN BAKU PROVINCE IN NORTHERN AZERBAIJAN LATE IN XIX- EARLY İN XX CENTURIES

**F.E.BAKSHALIYEV**

### SUMMARY

The article details the major changes occurred in the position of landlordism in the countryside possessory of Baku Province in the early new century. Landowners and lords of Baku Province faced new challenges at the beginning of the new century, and especially before the first Russian bourgeois revolution and after it under new conditions, they had to resort to new methods of management. Bookmark in banks and landed estates and their sale had already become a common thing. Naturally, the size of landed estates decreased each year.

**Key words:** capitalist, development, village, Baku